# Azərbaycan Texniki Universitetinin rektoru kollektivə təqdim olunub

**Oruc MUSTAFAYEV**



Avqustun 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə Azərbaycan Texniki Universitetinin rektoru vəzifəsinə təyin edilmiş Vilayət Vəliyev kollektivə təqdim olunub. Ali məktəbin elmi-pedaqoji kollektivinin, əməkdaşlarının iştirak etdiyi mərasimdə çıxış edən Təhsil naziri Ceyhun Bayramov iqtisad elmləri doktoru, Əməkdar elm xadimi, professor Vilayət Vəliyevi rektor təyin olunması münasibətilə təbrik edərək ona gələcək fəaliyyətində uğurlar arzulayıb. Tədbirdə V.Vəliyevin tərcümeyi-halı, elmi-pedaqoji fəaliyyəti barədə məlumat verilib.

Vilayət Vəliyev 2014-cü ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "Əməkdar elm xadimi" fəxri adına layiq görülüb. O, İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun direktoru vəzifəsində çalışıb. Vilayət Vəliyev 107 elmi məqalənin, o cümlədən 40-dan artıq xaricdə çap olunmuş əsərin, həmçinin 1 monoqrafiya və 1 dərsliyin müəllifidir. Onun elmi rəhbərliyi ilə 12 fəlsəfə doktoru hazırlanıb.

V.Vəliyev Bakı Dövlət Universitetində, Bakı Mühəndislik Universitetində, Milli Aviasiya Akademiyasında elmi-pedaqoji fəaliyyətlə məşğul olub. Təhsil naziri Ceyhun Bayramov əlavə edib ki, Vilayət Vəliyev ölkə Prezidenti tərəfindən ona göstərilmiş yüksək etimadın öhdəsindən ləyaqətlə gələcək. Nazir bildirib ki, ölkəmizin təhsil sistemində mühəndis kadrları hazırlayan ali məktəb olaraq AzTU genişprofilli ali təhsil müəssisəsidir. Universitet müasir dövrün tələblərinə və Azərbaycan iqtisadiyyatının inkişaf konsepsiyasına uyğun olaraq yüksək ixtisaslı mütəxəssislərin hazırlanması istiqamətində səmərəli fəaliyyət göstərir. Universitet güclü elmi kadr potensialına malikdir. Ali məktəbdə 600-dən artıq professor-müəllim heyəti işləyir. Görülən işlər və bir sıra yeni istiqamətlər nəzərə alınmaqla AzTU ölkəmizin ali təhsil sistemində texniki təhsilli kadrlar hazırlayan əsas universitetdir. Ceyhun Bayramov onu da bildirib ki, texniki ixtisaslar üzrə abituriyent sayında artım müşahidə olunur, eyni zamanda texniki təhsil alan məzunların göstəriciləri də yaxşılaşıb. Əmək bazarının tələbləri də abituriyentlərin seçiminə təsir edib. Nazir qeyd edib ki, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" sənədində də yüksəkhazırlqlı, rəqabətqabiliyyətli məzunların hazırlanması məsələsi əsas vəzifə kimi qarşıya qoyulub.

Təhsil naziri C.Bayramov təqdimatda ölkəmizin ali təhsil sistemində aparılan islahatlardan, ali təhsilin əhatəliliyinin genişləndirilməsi sahəsində həyata keçirilən tədbir və təşəbbüslərdən, ölkə başçısı İlham Əliyev tərəfindən tələbə təqaüdlərinin stimullaşdırılması istiqamətində verilmiş mühüm qərarlardan bəhs edərək bütün bunların rəqabətli və keyfiyyətli ali təhsil mühitinin yaradılmasında böyük əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb. C.Bayramov Prezident İlham Əliyev tərəfindən imzalanmış "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nda nəzərdə tutulan vəzifələrin ali təhsil sistemimizin inkişafına əlavə təkan verəcəyini vurğulayıb.

Sonda dövlət başçısı İlham Əliyevin rəhbərliyi altında təhsil sahəsində uğurlu islahatlar həyata keçirildiyini diqqətə çatdıran Ceyhun Bayramov bu istiqamətdə qarşıya qoyulan vəzifələrin, verilən tapşırıqların icrası ilə bağlı universitet kollektivinə müvafiq tövsiyələrini verib.

Yeni rektor V.Vəliyev çıxış edərək yüksək etimada görə ölkə başçısına minnətdarlığını və bu etimadı doğruldacağını bildirib. V.Vəliyev yeni hədəf kimi AzTU-nun regionun nüfuzlu texnoloji universitetləri sırasına yüksələcəyinə əminliyini ifadə edib. Sonda Təhsil naziri Ceyhun Bayramov son 3 il ərzində AzTU-nun rektoru səlahiyyətlərini icra etmiş professor Xalıq Yahudova təşəkkür edib.

Azərbaycan müəllimi.- 2019.-2 avqust.- S.4.